**Dövlət Statistika Komitəsi nümayəndələrinin Kiyev şəhərində təşkil olunmuş "İstehlak qiymətləri indeksinə dair" seminarda iştirakı haqqında**

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin nümayəndələri Qiymət statistikası şöbəsinin baş məsləhətçisi Rəşid Vəliyev və məsləhətçisi Əziz Quliyev 2012-ci il 21-23 may tarixlərində Avropa Azad Ticarət Assosiasiyası, Norveç Mərkəzi Statistika Bürosu, İsveçrə Federal Statistika İdarəsi və Ukrayna Dövlət Statistika Xidməti tərəfindən Kiyev şəhərində təşkil olunmuş "İstehlak qiymətləri indeksinə dair" seminarda iştirak etmişlər. Seminarda Azərbaycan, Ukrayna, Belarus, Moldova, Qazaxıstan, Qırğızıstan, Tacikistan, Gürcüstan, Ermənistan, Norveç və İsveçrə milli statistika orqanlarının mütəxəssisləri iştirak edirdilər.



Seminarda konseptual məsələlər, seçmə üsulları, məlumatların toplanması, elementar və ümumi indekslərin hesablanması, mövsümi mallar, məlumatların yayılması mövzuları üzrə müzakirələr aparılmışdır.

Seminarda "İstehlak qiymətləri indeksinin konsepsiyası, miqyası və əhatəliliyi", "İstehlak qiymətləri indeksinin məqsədi (inflyasiya və həyat səviyyəsi)", "Milli Hesablar Sistemində İstehlak qiymətləri indeksinin istifadəsi", "Müəssisələrin məcmusunun və seçməsinin müəyyən edilməsi – reyestrlərin istifadəsi" və "İstehlak səbətinin formalaşdırılması", "Qiymət qeydiyyatçılarının istifadəsi – təlimi", "Qiymət qeydiyyatçılarının iştirakı olmadan sorğu kitabçalarının istifadəsi", "Qiymətlərin mərkəzləşdirilimiş toplanması – jurnal, qəzet, internet vasitəsilə", "İstehlak qiymətlərinin skan edilmiş məlumatlar əsasında toplanması", "Düsturların tətbiqi və birbaşa və ya zəncirvari indekslərin istifadəsi" və "Elementar və ümumi indekslərin hesablanmasında praktiki təcrübə" mövzuları üzrə məruzələr oxunmuşdur.

Məruzələr zamanı Karli, Duoto, Djevons, Laspeyres, Paaşe, Lou, Yunq, Fişer, Uolş və Tornkvist indeksləri barəsində seminar iştirakçılarına qısa məlumat verilmiş və qeyd olunmuşdur ki, qiymət sahəsində daha dəqiq statistikanın aparılması məqsədilə hər bir ölkə öz iqtisadiyyatının xüsusiyyətlərini nəzərə almaqla, daha uyğun olan indeksi tətbiq etməlidir.

Seminarın sonunda "Həmahəng istehlak qiymətləri indeksində geyim və ayaqqabıların qiymətlərinin qeydiyyatı", "İstehlak qiymətləri indeksində mövsümi malların qiymətlərinin qeydiyyatı" və "Məlumatların və metaməlumatların yayılması" mövzuları üzrə fikir mübadiləsi aparılmışdır. Müzakirələrin gedişində mövsümi malların hesablanması zamanı beynəlxalq təcrübənin tətbiq olunmasına dair məlumat verilmişdir.

Mövcud beynəlxalq standart və metodlara əsaslanan və praktiki məsələlərin həll edilməsi üçün ən yaxşı təcrübələrin tətbiqinə istiqamətlənən seminar işgüzar şəraitdə keçmiş, maraqlı diskussiyalar aparılmışdır.